***Səfa QARAYEV***
***Filologiya üzrə fəlsəfə doktoru***
***AMEA Folklor İnstitutu***
***e-mail: safaqara@mail.ru***

# SÜNNƏT MƏRASİMİNDƏ "YUMURTA" VƏ "QADIN ƏTƏYİ"NİN PSİXOANALİTİK SEMANTİKASI

**Xülasə**

Məqalədə Azərbaycan ərazisində həyata keçirilən sünnət mərasimindəki bir çox ənənəvi davranışlar psixoanalitik kontekstdə təhlilə cəlb edilmişdir. Məlum olduğu kimi, Azərbaycan ərazisində sünnət edilən oğlan uşaqlarına qadın ətəyi geyindirilir, bundan savayı sünnət edildikdən sonra uşağın yanına suyun içərisində yumurta qoyulur. Məqalədə mərasimdə qadın gücünə işarə edən "qadın ətəyi" və "yumurta" Bruno Bettelheim və Alan Dundesin psixoanalitik yanaşması əsasında təhlilə cəlb edilmişdir. Psixoanalitik yanaşmaya görə, kişi kollektivində qeyri-şüuri şəkildə qadınların doğum qabiliyyətlərinə qısqanclıq mövcuddur. Bu qısqanclıq nəticəsində kişi kollektivi müxtəlif rituallarla və digər yaradıcılıq faktları ilə qadınların doğum güclərini mənimsəyirlər. Beləliklə, gerçəklikdə qadınların doğum gücü yaradıcılıq faktlarında müxtəlif simvolik aktlarla kişilərə aid edilir. Nəticədə, kişilər yaradılış mexanizmini mənimsəmiş olurlar. Məqalədə oğlan uşaqlarına geyindirilən "qadın ətəyi" və yanlarına qoyulan "yumurta"nın semantikası qadın doğumuna kişi qısqanclığının simvolik ifadəsi kimi analiz edilmişdir. Müəyyənləşdirilmişdir ki, mahiyyəti etibarı ilə bu, kişilərin bütün yaradılış mexanizmlərinə sahib olmaq arzularının bir parçasıdır.

***Açar sözlər:*** *sünnət mərasimində qadın ətəyi, yumurta, Bruno Bettelheim, Alan Dundes, psixoloji qısqanclıq*

***Safa QARAEV***

## PSYCHOANALYTIC SEMANTICS OF "EGG" AND "WOMAN'S SKIRT" AT THE RITUAL CIRCUMCISION

**Summary**

In the article many traditional behaviors at the ritual circumcision carried out on the territory of Azerbaijan are involved to the analysis in the psychoanalytic context. As it is known, in the territory of Azerbaijan the circumcised boys are dressed in woman's skirt, in addition, after the ritual circumcision the egg in the water is placed

next to the child. In the article "the woman's skirt" and "egg" which pointed to female power in the ritual are analyzed according to Bruno Bettelheim and Alan Dundes's psychoanalytic approach. According to the psychoanalytic approach, in the male collective there is jealousy to the ability of women to give birth unconsciously. As a result of this jealousy, the male collective assimilates the birth power of women with various rituals and other creative facts. Thus, in reality, the birth power of women is attributed to men by various symbolic acts in creative facts. As a result, the men master the creation mechanism. In the article the semantics of "woman's skirt" and "egg" are analyzed as a symbolic expression of male jealousy. It is determined that, in essence, it is a part of the desire of men to have all creation mechanism.

***Keywords:*** *the ritual circumcision, woman's skirt, egg, psychological jealousy*

***Сафа ГАРАЕВ***

**ПСИХОАНАЛИТИЧЕСКАЯ СЕМАНТИКА «ЯЙЦА» И «ЖЕНСКОЙ ЮБКИ» В ОБРЯДЕ ОБРЕЗАНИЯ**

**Резюме**

В статье анализируются многие традиционные модели поведения в обрядах обрезания, проводимых в Азербайджане в психоаналитическом контексте. Как известно, в Азербайджане обрезанные мальчики одеваются в женские юбки, а после обрезания яйцо кладут в воду рядом с ребенком.

В статье на основе психоаналитического подхода Бруно Беттельхейма и Алана Дандеса, анализируются «женская юбка» и «яйцо», которые указывают на женскую силу в обряде. Согласно психоаналитическому подходу, в мужском коллективе существует неосознанная ревность к женской фертильности, т.е. плодовитости. В результате этой ревности мужской коллектив с помощью различных ритуалов и других творческих фактов присваивает плодородие женщины. Таким образом, в действительности плодородие женщин приписывается мужчинам различными символическими актами в творческих фактах. В результате мужчины осваивают механизм творения.

В статье анализируется семантика «женской юбки», которую носят мальчики, и «яйца», помещенного рядом с ребенком, как символическое выражение мужской ревности по поводу женского рождения. Определяется, что, по сути, это часть желания мужчин овладеть всеми механизмами творения.

***Ключевые слова:*** *обрезание, женская юбка, яйцо, Бруно Беттельхейм, Алан Дандес, психологическая ревность*

Öncə Bruno Bettelheimin “Simvolik yaralar: keçid ritualları və kişi qısqanclığı” adlı tədqiqatındakı bir məqama diqqət yönəltmək istərdik. Sivilizasiyadan kənarda qalan bir çox tayfaların insiasiya rituallarını analiz edən Bruno Bettelheim, əsasən, aşağıdakı məsələlər üzərində xüsusi dayanır:

1. Sünnət etməni də ehtiva edən inisiasiya rituallarına artım ritualları kontekstində baxılmalıdır.

2. Qızların və oğlanların inisiasiya ritualları onların sosial mühit tərəfindən təklif olunan seksual rolları tamamilə qəbul etmələrini nümayiş etdirir və simvollaşdırır.

3. Kişi inisiasiya rituallarının bir məqsədi kişilərin də uşaq doğa bilməsini diqqətə çatdırmaqdır.

4. Cinsiyyət orqanının kəsilməsi zamanı yaradılan qanaxma vasitəsi ilə kişilər çalışır ki, qadınlarınkına ekvivalent olan seksual orqan və funksiyalar əldə etsinlər.

5. Ola bilsin ki, sünnət seksual yetişkənliyi sübut etmək cəhdidir və sünnət qadınlar, yaxud da hər iki cins tərəfindən həyata keçirilə bilər

6. Kişi insiasiya rituallarını əhatə edən gizlilik isə arzu olunan məqsədə (kişilərin doğum qabiliyyətinə sahib olmalarını göstərməyə – S.Q.) nail olunmamasının gizlədilməsinə xidmət edir.

7. Qadın sünnəti müəyyən qədər qadının seksual funksiyaları haqqında kişilərin bir-birinə zidd olan düşüncələrinin və müəyyən qədər də kişi sünnətinə reaksiyanın nəticəsi ola bilər (Bettelheim 1962: 45).

Müəllifin sözügedən kitabında əsaslandırmaq istədiyi ən başlıca ideya kişilərdə qadınların doğum qabiliyyətlərinə qısqanclığın mövcud olması fikridir. O yazır ki, “Tədqiqatın gedişində mən insiasya rituallarının mənasını və funksiyasını dərindən anlamaq üçün tamamilə fərqli psixoanalitik yanaşmadan təsirləndim; yanaşma budur ki, bir cins seksual orqanlar və onların funksiyaları baxımından digərinə qarşı qısqanclıq hiss edir" (Bettelheim 1962: 19). Müəllif daha sonra diqqətə çatdırır ki, bir çox cəmiyyətlərdə oğlanların inisiasiya rituallarının qızlarınkından daha qarışıq olmasının səbəblərindən biri qadınların öz kişi qısqanclıqlarını daha açıq ifadə edə bildikləri halda, kişilərin müvafiq qısqanclıqlarını yalnız ritualda ifadə edə bilmələri ilə bağlıdır" (Bettelheim 1962: 56). Müəllif kişilərin ayrı-ayrı inisiasiya rituallarının qadın cəmiyyətlərindən kənarda, qadınların iştirakının qadağan edildiyi gizli bir şəraitdə keçirilməsininin və bu aktların çox zaman kişilərin cinsiyyət orqanının kəsilməsi ilə realizə olunmasının səbəbini qadınların doğum qabiliyyətinə kişi qısqanclığı kimi izah edir. Yəni qadınların doğum qabiliyyətininin göstəricisi olan “menstrual qanaxma” kişilər üçün də sünnət vasitəsi ilə süni şəkildə yaradılır. Həmçinin ritualdakı simvolik davranışlarla kişilərin də doğum qabiliyyətlərinin olması təssüratı yaradılır. Qadınlara həmin mərasimlərə iştirakı-

nın qadağan edilməsi isə kişi doğumu ilə bağlı simvolik davranışların yalan olmasının üzə çıxarılmasının qarşısının alınmasına xidmət edir (Bettelheim 1962: 131).

Qeyd edək ki, Alan Dundes bu yanaşmadan miflərin və folklorik faktların semantikasının öyrənilməsində geniş şəkildə istifadə etmişdir (Bronner 2015: 24). O, bu yanaşma kontekstində yaradılış miflərində qadınların kişilərin qabırğasından yaradılması faktına diqqət yönəldərək yazır ki, "Patriarxal cəmiyyət tələb etmişdir ki, bioloji normalar mif daxilində pozulsun" (Dundes 2007: 349). Alan Dundes bununla izah etmək istəyir ki, patriaxal kişi mühitinin qadınların doğum funksiyasına qısqanclığı ilə əlaqədar olaraq kişinin qadından deyil, qadının kişinin qabırğasından doğulması təsvir olunur. Yəni burada "proyektiv inversiya" hadisəsi baş vermişdir. Dundes kişilərdə qadınların doğum qabiliyyətinə qısqanclıq və bu yanaşmanın mif və rituallarda təzahürü problemini başqa yazılarında da geniş şəkildə dayanmışdır (Dundes 1976: 220–238). Tədqiqatlardan məlum olur ki, kişilərdə qadın doğum qısqanclığının olması öz təsirini yalnız sosial ritualarda göstəmir. O, həmçinin yaradıcılığın meydana gəldiyi fantaziya dünyasında da təsir göstərir və bu da yaradıcılıqda bəzi məsələlərin reallıqdan fərqli şəkildə əks olunmasına səbəb olur.

Yuxarıda dediyimiz kimi, qadınların doğum qabiliyyətinə kişi qısqanclığı bəzən də kişilərin simvolik davranış kontekstində qadınların doğum qabiliyyətlərini mənimsəmələri şəklində özünü büruzə verir. Bu məsələni də qısaca şəkildə sünnət mərasimindəki bir neçə fakt əsasında izah etmək istərdik. Ənənəvi sünnət mərasimləri ilə bağlı müşahidələrimiz göstərir ki, qadınlar sünnət olunan yerə buraxılmırlar. Sünnət olunma prosesində bir qayda olaraq uşaqların başına qırmızı parça atırlar. Bunun məzmunu da uşağın qan görüb qorxmaması ilə izah edilir. Bundan əlavə, R.Qarayevanın verdiyi məlumata görə Qarabağ bölgəsində "sünnət olunan uşağının xəstəliyin yüngül keçməsi və tez sağalması üçün yumurtanı suya qoyub xəstənin baş tərəfinə qoyurdular". Seymur Daşdəmirovun verdiyi məlumatdan aydın olur ki, Borçalı rayonunda da "suyun içərisinə yumurta qoyub qoyurlar sünnət olunan uşağın çarpayısının altına ki, yüngüllük olsun". Naxçıvan ərazisində də "Uşağı sünnət eliyəndə qabda suyun içində yumurta ilə 40 nar çubuğu da qoyurduq. Bu uşağın üstünə qırxlı adam gələndə nar çubuqların suya batırıb çiliyərdik sünnətli uşağa ki, uşağı qırx basmasın" (Cəfərli-Babayev 2010: 42). Sünnətdə yumurta yalnız su dolu stəkana qoyulmur. Türkiyənin Kayseri bögəsində yaşayan türklərdə uşaq "sünnətdə çox ağladığı zaman ağzına xaşlanmış yumurta verilir. Yumurta uşağa sünnət hədiyyəsi olaraq da mütləq gətirilməkdədir" (Altun 2004: 208). Göründüyü kimi, bəzən gəlinlərdə olduğu kimi, sünnət olunan uşaqlara da yumurta yedirdilir.

Bundan başqa, Azərbaycanda uşaqlar sünnət olunduqdan sonra onlara ətək (qadın paltarı, yubqa) geyindirilir. Ağdam rayon Qiyaslı kəndi sakini Zöhrə Vəli-

yevadan aldığımız məlumata görə, "sünnət olunan uşağa qırmızı yupqa geyindirirdilər". O belə bir məlumat verdi ki, qardaşının uşaqları sünnət olarkən oğlanlarının sünnət olunanda geyindikləri qırmızı yupqanı sandıqdan çıxarıb verib onlara. Onlar da geyinib qapıda fidbol oynayırmışlar (material arxivimizdədir). Sünnət mərasimlərində bu ənənələr son dövrə qədər davam etmişdir.

Təsvir olunan etnoqrafik mənzərədəki iki faktın fikrimizi izah etmək üçün ciddi material verdiyini düşünürük. Sünnət olunan zaman uşağın yanına su ilə dolu stəkanın içərisinə yumurta qoyulur. Xalq bunu yaranın tez sağalması və yumurtanın ağrı-acını özünə çəkməsi məqsədi ilə edildiyini bildirir. İkincisi isə sünnət edildikdən sonra uşağa yubqa geyindirilməsi faktı. Çox zaman oğlan uşaqlarının utanaraq geyindikləri bu yubqanın rəngi qırmızı olur. Sünnətdən sonra oğlanlara yubqanın geyindirilmə səbəbi kimi isə şalvardan fərqli olaraq onun bədənə yapışmaması, yaraya toxunub problem yaratmaması ilə izah edilir.

İlk öncə deyək ki, mədəniyyətdə yumurta qadın bətnini, qadına xas olan doğurqanlığı təcəssüm etdirir. Məsələn, türkmənlərdə "gəlinə qaynadılmış yumurta yedirirlər ki, çox uşaqları olsun" (Tatlılıoğlu 2000: 154), "Türkiyənin Çepni bölgəsində qız evi gəlinlə birlikdə yeni ailə quranlara yumurtlayan bir toyuq da hədiyyə edir. Bununla gəlinin çox uşaqlı bir ana olacağına inanılır. Toyuq-yumurta dölün, züryətin simvoludur" (Kalafat 2007b: 108), "Ahıska türklərində hamilə qadına niyyətlə bişirilən yumurtanın içi sərt olarsa, oğlan, yumuşaq olarsa, qız olacağına inanılır" (Kalafat 2007a.: 199), Türkiyənin Muş bölgəsində "gəlin qapıdan girərkən qapının üstündə yumurta qırılır və qapı eşiyinə yağ sürtülür"(Akyol 2006: 67). "Türk Atalarda qaynana və qaynata tərəfindən uşaqlı olması üçün gəlinin yatağına qaynanmış yumurta atılır" (Kalafat-Yelis 2012: 190).

Təqdim olunan mətnlərdən aydın olur ki, yumurta qadın doğurqanlığı ilə əlaqələndirilir. Amma sünnətlə bağlı təqdim etdiyimiz etnoqrafik faktdan göründüyü kimi, su ilə dolu stəkana qoyulan yumurta kişi cinsiyyət orqanı ilə bir araya gətirilir və semantik məzmundan anlaşılan odur ki, burada məqsəd cinsiyyət orqanının "yaratma", "doğum" qabiliyyətinə malik olması (və yaxud da belə bir keyfiyyətə sahib olması arzu edilir) mesajını verməkdir. Yəni mərasimi ənənədə dişi gücünü simvolizə edən yumurtanın sünnətdə fallik gücün doğub-törəmə keyfiyyətini də simvolizə etməsinin əsasında kişi cəmiyyətinin fallik gücün qadınlara xas olan doğub-törəmək qabiliyyətinə də malik olmasını diqqətə çatdırmaq istəkləri ilə bağlıdır.

Onu da deyək ki, bir çox psixoanalitik tədqiqatlarda belə bir sual qoyulur: nəyə görə kişi cinsiyyət orqanı müxtəlif sakral əsasa söykənməklə qanadılır? Belə bir davranışın ortaya çıxmasının səbəbi nədir? Bu sual cavablandırılarkən bildirilir ki, kişi cinsiyyət orqanının müxtəlif üsullarla qanadılmasının prototipik əsasında qadın-

ların ərgənləşmə kontekstində doğum və artım qabiliyyətlərinin ilkin əlaməti hesab edilən menstrual qanaxmanın imitasiyası dayanır. Yəni qadın biologiyası üçün doğum qabiliyyətinin ilkin əlaməti hesab edilən "qanaxma" süni şəkildə ritual davranışlar vasitəsilə kişilər üçün də təşkil edilir. Burada əsas məqsəd kişilərin də doğum qabiliyyətinə malik olmalarını diqqətə çatdırmaqdır (Bettelheim 1962: 131).

Belə bir davranışın ortaya çıxmasının psixosemantikası kişilərin qadın doğumuna qısqanclığı ilə izah edilmişdir. Bu məsələyə münasibət bildirən Alan Dundes yazır: "İlkin psixoanalitiklər inisiasiya rituallarını şərh edərkən onu xədimetmə, yaxud da edipal dram ritualı kimi əsaslandırmışlar. Məsələn, Reik belə hesab edir ki, oğullarını qısqanan rəqib ata onların cinsi orqanlarını mədəniyyətin icazə verdiyi formada zədələməkdə (sünnət etməklə – S.Q.) israr edir. Bettelheim bu məsələdə bir qədər də irəli gedərək bildirdi ki, bu davranış xədimetmədə olduğu kimi gənclərin kişilikdən imtina etmələri deyildir, daha çox onlardan qadın cizgilərinin qəbul etmələri istənilir. Bu, inisiasiya rituallarını keçid ritualı kimi, yaxud da kollektiv formada kişi kimliyinin dramatizasiyası kimi (yəni kişiliyin qadınlığa nəzərən qurulmasını – S.Q.) izah edən bir çox antropoloqların yanaşması ilə ziddiyyət təşkil edir. Antropoloqlar bəzi inisiasiya rituallarında açıq qadınlaşdırma davranışlarının mövcudluğunu inkar edə bilməzlər. Məsələn, bu məsələ Nandilər arasında sünnət olunan uşaqların geyimləri əsasında göstərilə bilər. Sünnət mərasimindən öncə oğlanlar qız kimi geyindirilir. Sünnətdən sonra qız paltarı qadın geyimi ilə əvəz edilir. Göründüyü kimi, psixoanalitik və antropoloji şərh arasında açıq-aşkar fərq vardır. Antropoloqlar iddia edirlər ki, inisiasiya ritualı oğlanları kişi edir, psixoanalitiklər iddia edirlər ki, eyni ritual kişiləri psevdo qadın formasına salır. Hər iki mövqeni də qəbul etmək mümkündür. İnisiasiya ritualları oğlanları kişiyə çevirir, amma bu rituallar bunu feminizə etmək yolu ilə edir. Bettelheim inisiasiyada qadınlaşmanın izah etmək üçün kişilərin qadınların doğum, yaratma qabiliyyətinə qısqanclığı ilə izahetməni təklif edir" (Dundes 1976: 232).

Müəllifin demək istədiyi ondan ibarətdir ki, bir tərəfdən cinsiyyət orqanının zədələnməsi edip kompleksi kontekstində atanın xədimedici gücünü təmsil edir. Belə ki, atanın oğlunu qısqanması keçid situasiyasında ona bir çox kişilikdən məhrumedici davranışları (cinsiyyətini zədələməklə simvolik xədimetməni, ona qadınlara xas olan geyimləri geyindirilməklə kişilikdən məhrum etməni və s.) tətbiq etməsi ilə nəticələnir. Antropoloqlar isə bunu kişiliyin dramlaşdırılması, yəni oğlanların inisiasiyasında kişiliyin qadınlığa nəzərən qurulan bir dəyər olması ilə bağlı mesajın verilməsi kontekstində izah edirlər. B.Bettelheim isə keçid situasiyasında inisiasiya subyekti olan oğlanların bu davranışlara məcbur edilməsini kişilərin qadın doğumuna olan qısqanclığı ilə izah edir. Yəni kişilik statusuna keçid-

də inisiasiya subyektinə qadın cizgilərinin verilməsi onların da yaratma mexanizmi olan doğum və artım qabiliyyətinə malik olması mesajını verməyə xidmət edir. Alan Dundes bu baxışların bir-birlərini inkar etmədiyinə vurğu edərək bildirir ki, yeni statusa, kişiliyə keçid qadınlara aid olan cizgilər vasitəsi ilə həyata keçirilir. Xatırladaq ki, psixoanalitik kontekstdə mədəni faktlara baxanda semantik baxımdan yalnız bir-birlərini təsdiq edən reallıqla deyil, çox zaman bir-biri ilə uyuşmayan müxtəlif mövqe və baxışların zidliklər içərisində bir arada mövcudluğu ilə qarşılaşırıq. Hər hansısa bir yanaşma insan fenomeninin yaradıcılığının təbiətini və mədəniyyətdəki zidliklərin bir arada yaşamalarının səbəbini tam şəkildə izah etmək gücündə deyildir. Bu mənada, sünnət aktının atanın xədimedici təbiətini göstərməsi ilə yanaşı, bunun kişilərin qadınların doğum qabiliyyətlərinə qısqanclıqlarından qaynaqlanması ilə bağlı yanaşmanı da qəbul etmək mümkündür. Yəni bir davranış kontekstində (sünnətlə) oğulların qəbul etdikləri mesajla (ata gücünün xədimedici və sərhədqoyucu təbiəti ilə) kişilərin kişiliyə müxalif olan qadınlara verdikləri mesaj (kişilərin də yaratma və doğum qabiliyyətinə malik olmaları) eyni anda aktuallaşır. Bu problemlər üzərində çox dayanmadan deyək ki, sünnət prosesində cinsiyyət orqanının kəsilərək qanadılması qadınların menstrual qanaxmasının imitasiyasıdır və kişilərin də doğum qabiliyyətinə malik olmalarının göstərilməsinə xidmət edir. Bu mənada, oğlan uşaqlarında qanaxmanın imitasiyası ilə müşayiət olunan sünnətdə stəkana qoyulmuş yumurtanın semantikası da daha aydın izah oluna bilər: kişilər də (və ya fallos da) doğum və yaratmaq qabiliyyətinə malikdir. Heç təsadüfi deyildir ki, Naxçıvan ərazisindən toplanılmış mətndə bildirilir ki, uşağı sünnət eliyəndə qabda suyun içində yumurta ilə 40 nar çubuğu da qoyurlar. Bu uşağın üstünə qırxlı adam gələndə nar çubuqların suya batırıb çiləyirlər sünnətli uşağa ki, uşağı qırx basmasın (Cəfərli-Babayev 2010: 42).

Əslində, burada sünnət olunan uşaq zahı qadınlar kimi qorunur. Qırx basması barədə deyilir ki, "zahı və uşağın doğumdan sonrakı qırx gün içərisində xəstələnməklərinə xalq kültüründə "qırx basması" adı verilir. Bu qırx gün içərisində ana və uşağın xəstəliklərindən, nəzərdən, pis təsirlərdən qorumaq üçün müxtəlif tədbirlər həyata keçirilir. Bunun üçün qırx gün içərisində ana da, uşaq da ziyarətə gələnlərdən qorunur" (Başçetinçelik: http://turkoloji.cu.edu.tr). Sünnətlə bağlı yuxarıda təqdim olunan mətndən aydın olur ki, sünnət olunan şəxsin üzərinə qırxlı adamın gəlməsi hamilə qadın kimi ona da pis təsir edə bilər. Çox ehtimal ki, sünnət olunan şəxsi qırx basması onun doğum və artım qabiliyyətinin aradan qalxmasına səbəb olacağı düşünülür. Odur ki, qırxlı adam sünnət olunan uşağın yanına gəlib getdikdən sonra onun üzərinə yumurta salınmış stəkandan su çilənilir ki, bu da onun doğum və artım qabiliyyətinin yenidən bərpa olunmasına xidmət edir.

Demək istədiyimiz odur ki, sünnət olunan şəxsə hamilə və ya zahı qadınlar üçün xarakterik olan davranışların tətbiq olunması da sünnət olunan cinsiyyət orqanının fallik doğurqanlığa (yəni qadınların iştirakı olmadan doğan və yaxud doğumda daha funksional olan) işarə etməsi ilə bağlıdır. Heç təsadüfi deyildir ki, Azərbaycan ərazisində hansısa bir hamilə qadının uşaq dünyaya gətirməsini ifadə edən filankəs "qurtardı" deyimi Türkiyə ərazisində sünnət olunub qurtaran şəxs barəsində istifadə olunur (Altun 2004: 208).

Yeri gəlmişkən deyək ki, mədəniyyətdəki fakt və simvolların mahiyyəti tədqiqatçının realist təbiətli yanaşmaları ilə izah edilə bilməz. Yəni fallik orqana doğum qabiliyyətinin aid edilməsi, ola bilər ki, realist planda yanaşma əsasında anlaşılmasın. Amma kişi kollektivinin qadının yaratma mexanizmi olan doğuma qısqanclığı reallıqla səsləşməyən davranışların simvolik şəkildə mədəniyyətdə aktuallaşmasına gətirib çıxarır. Məsələn, Anadoluda “Toyuğun xoruz kimi banlaması uğursuzluq olaraq qəbul edildiyi halda, bəzi bölgələrdə xoruzun yumurtlaması bərəkət olaraq bilinir” (Kalafat 2006: 334). Bu inanca sosial münasibətlərin proyeksiyası kimi baxılmalıdır. Toyuğun (simvolik olaraq qadını bildirir) xoruz (simvolik olaraq kişini bildirir) kimi banlaması sosial kontekstdə qadınların kişi statusuna iddia etmələri kimi dəyərləndirildiyinə görə mənfi qiymətləndirilir. Burada əsas maraq doğuran məqam xoruzun nadir hallarda yumurtlama qabiliyyətinə malik olması ilə bağlı inancdır. Təbiidir ki, xoruzun yumurtlaması heç bir halda mümkün deyildir. İrrassional mədəni faktların təbiətinin rasional olaraq izah edilməsi spesifik yanaşma tələb edir. Belə bir yanaşma tədqiqatçını "məntiqsizliyin məntiqi əsasını" tapmaq kimi, çətin bir vəzifənin öhdəsindən gəlmək zərurəti qarşısında qoyur. Belə olduğu halda sual ortaya çıxır ki, bu qeyri-real, heç bir bioloji adekvatlığa malik olmayan folklorik inancın meydana çıxmasının səbəbi nədir?

Bizə elə gəlir ki, kollektivdə belə bir inancın ortaya çıxmasının psixosemantik əsasında qadınların doğum qabiliyyətinə kişi qısqanclığı dayanır. Bu reaksiya qadınların özlərini kişi kimi aparmalarını mənfi qiymətləndirərək onu cəzaya (kəsilməyə) layiq bildiyi halda, xoruzun yumurtlamasını bərəkət kimi dəyərləndirir. Əslində, qadın doğumuna qarşı simvolik dildə kişilərin doğum qabiliyyətinin olmasını irəli sürmək həm də kişilərin qadınların yaratma qabiliyyətlərini mənimsəmə texnologiyasıdır. “Kişi doğumu” ilə bağlı faktların folklordakı açıq ifadəsi alçaldıcı və ironik məzmun daşıyır (kişilər arasında tez-tez istifadə olunan “kiminsə yanında boğaz olmaq” ifadəsində olduğu kimi). Belə bir şəraitdə kişilərin qadın doğumuna olan qısqanclığının folklordakı ifadəsi birbaşa deyil, simvolik şəkildə təcəsüm olunmaqla özünü ifadə imkanı əldə edir. Bu mənada “xoruzların nadirən yumurtlaması” və bunun “bərəkət” hadisəsi kimi dəyərləndirilməsi Bruno Bettel-

heimin psixoanalitik tədqiqat nəticəsində müəyyənləşdirdiyi qadınların doğum qabiliyyətinə kişi qısqanclığı kontekstində izah edilə bilər.

Beləliklə, sünnət mərasimində yumurta simvolizmi ilə fallik doğurqanlığa işarə edilməsi aydın olur. Bu kontekstdə sünnət olunan şəxslərə "yubqa" deyilən qadın paltarının geyindirilməsi faktının semantikası da daha aydın izah edilə bilər. Bir daha xatırladaq ki, sosial reallıqda oğlan uşaqları bu geyimi utanaraq geyinirlər və ələ salınacaqları mühitlərdən gizlənməyə çalışırlar. Sünnət mərasimindən sonra oğlan uşaqlarına deyirlər ki, "sən artıq kişi oldun". Demək, kişi olmaları deyilən uşaqlara həm də qadın paltarı (yubqa) geyindirilir. Sosial həyatda sünnət olunan şəxslərə qadın paltarının geyindirilməsi bu geyimin şalvardan fərqli olaraq yaraya toxunmaması ilə izah edilir. Buna uyğun olaraq bir məsələni diqqətə çatdıraq ki, bəzi inacların sosial həyatda realist məzmunlu funksionallığa malik olması onun əlavə metaforik mənalarının inkarına əsas vermir. Əslində, bu hallar müxtəlif inanc və folklorik davranışların öz həyatlarını daha uzun zaman kəsimində davam etdirməsi üçün şərait yaradır. Belə ki, bəzi inanclar şüuri senzuradan keçmədikləri üçün (yəni məntiqli gəlmədiklərinə görə) öz folklorik həyatlarını davam etdirə bilmir. Amma bu halda, yəni sünnət olunan oğlan uşağına qadın paltarının geyindirilməsinin yaranı qorumaq funksiyasını həyata keçirməsi onun məntiq senzurasından keçərək, yəni özü üçün məntiqi mühiti təmin edərək daha uzun zaman kəsimində həyatda qalmasına şərait yaradır. Amma başqa bir məsələni də xatırladaq ki, əgər sosial reallığın sünnət olunan şəxsə qadın paltarının geyindirilməsi ilə bağlı hər hansısa bir vetosu olsaydı, bu, belə bir kollektiv davranışın reallaşdırılmasına imkan verməzdi və yaranı qorumaq üçün başqa imkanlar tapardı. Amma bu məsələ ilə bağlı etnoqrafik reallığa diqqət yetirəndə aydın olur ki, sünnət olunan şəxslərə geyindirilən qadın paltarının realist funksionallığı ilə yanaşı, metaforik mahiyyəti də vardır. Yuxarıda Ağdam rayon sakininin təsvirləri əsasında verdiyimiz məlumatdan aydın olur ki, bu qadın paltarları çox zaman keçid məzmunu daşıyan qırmızı rəngdə olur və onlara sıradan bir geyim kimi yanaşılmır. Bu geyim dəyərli bir əşya kimi sandıqda saxlanılır və növbəti sünnət olunanlara geyinmələri üçün verilir. Bir sözlə, sünnətdə oğlan uşaqlarına geyindirilən yubkanın realist məzmunu ilə yanaşı, simvolik mənası vardır və bu sünnət olunan şəxsin yanına qoyulan doğum və artım məzmunlu yumurta kontekstində daha aydın şəkildə izah edilə bilər.

Bir məsələni diqqətə çatdıraq ki, sünnət olunan uşaqlara yubqa geyindirilməsi və su ilə dolu stəkana yumurtanın qoyulması onların öz istəklərinə əsasən aktuallaşmır. Bu, böyüklərin uşaqlar üçün müəyyənləşdirdiyi və həyata keçirdikləri davranışlardır. Odur ki, məsələyə həm uşaqların, həm də böyüklərin perspektivindən baxmaq olar. Uşaqların perspektivindən bu davranış xədimedici ata gücünün özünü bü-

ruzə verməsidir və bu davranışlar onların qorxu və həyəcanları ilə müşayiət olunur. Təsadüfi deyildir ki, Gökçə Cansevər "Sünnətin psixoloji effektləri" adlı yazısında sünnətin uşağa psixoloji təsiri ilə bağlı belə qənaətə gəlir: "Testin nəticələri göstərir ki, fallik mərhələdə icra olunan sünnət aktı uşaqlar tərəfindən aqressiya və xədimetmə aktı kimi qəbul edilir" (Cansever 1965: 330). Böyüklərin perspektivindən isə bu davranış "kişi aktyorlar"ın işidir: bu mərasim kontekstində kirvə seçilir, dəllək (türk dünyasının bir çox yerində dəlləyə dədə və baba deyilir) sünnəti həyata keçirdir, doğma ata və oğul yeni qohumluq münasibətlərinə daxil olurlar. Bu qohumluq münasibəti "kişi aktyor"ların cinsiyyət orqanı üzərində gördükləri sünnət etmək işi əsasında formalaşır. Sünnət olunan şəxs öz kirvəsinin qızı ilə evlənə biməz. Yəni sünnət olunan uşaq öz kirvəsini ata, onun qızlarını isə bacı kimi görməlidir. Bu məsələ barədə xalq arasında belə bir söz var ki, "kirvə kirvənin damının üstünə çıxmaz ki, toz tökülər. Kirvənin qızı ilə sünnət olunan uşaq bacı-qardaş hesab olunur" (Material arxivimizdədir). Burada "toz" simvolik olaraq cinsi əlaqəni bildirir və "ləkələmək" semantikası daşıyır. Bu inanc belə qohumlar arasında insest yasağının olmasını göstərir. Kişilərin oğlan uşaqlarının cinsiyyət orqanının kəsilməsi ilə reallaşdırdıqları bu davranışı qadınlar "döşdən süd əmizdirmə" vasitəsi ilə həyata keçirirlər. Xalq arasında uşağın öz anasının döşlərində süd olmayanda həmin uşağı daha bol südü olan qadına verirlər ki, onu əmizdirsin. Bu qadın həmin uşağın süd anası hesab edilir. Bu halda da uşaq süd anasının oğlu və qızı ilə evlənə bilməz. Bu mənada, "qadın aktyorlar" və "kişi aktyorlar" əsasında qurulan qohumluqların müqayisəli təhlili çox maraqlı mənzərə yaradır. Amma problemimizə müvafiq olaraq bu məsələ üzərində geniş dayanmırıq.

Burada diqqət yetirmək istədiyimiz əsas problemi sual formasında bu şəkildə qoya bilərik: kişi aktyorların iştirakı ilə aktuallaşan sünnət mərasimində uşaqlara yubqa geyindirilməsi və su ilə dolu stəkana yumurta qoyulması nə ilə bağlıdır? Bizə elə gəlir ki, məsələ Bruno Bettelheimin psixoanalitik tədqiqatlar ilə əsaslandırdığı, Alan Dundesin folklorla bağlı araşdırmalarında geniş şəkildə tətbiq etdiyi "qadınların doğum qabiliyyətlərinə kişi qısqanclığı" kontekstində izah edilə bilər. İndiyə qədərki izahlarımız bizim yanaşmamızı bu və ya digər dərəcədə ortaya qoyur. Amma bununla belə, sonda yenə də qısa şəkildə fikrimizi yekunlaşdırmaq istərdik. Kişi kollektivi mərasimi davranışları ilə öz kişi kollektivinə müəyyən mesajlar verməklə, bu qrupun idiokulturasının möhkəmliyini və davamlılığını təmin etməklə yanaşı, onlarla əks qütbdə dayanan qadınlara da müəyyən mesajlar verir. Bruno Bettelheim tədqiqatları göstərir ki, bütün hakim gücü öz əllərində birləşdirmək istəyən kişilərdə qadınların doğum, yaratmaq qabiliyyətlərinə qısqanclıq mövcuddur. Bu mənada, sünnət olunan uşağın yanına doğum gücünün işarəsi olan

su içərisində qoyulan yumurta və ona geyindirilən qadın paltarı, ətək ilə verilən mesaj ondan ibarətdir ki, kişilər də doğum qabiliyyətinə malikdirlər. **Bunun üçün də mərasimi kontekstdə sünnət olunan uşağın yanına qadın doğum gücünün işarəsi olan yumurta qoyulur və ona dişi başlanğıcın işarəsi olan yubqa geyindirilir. Mahiyyəti etibarı ilə bu "Adəm və Həvva" modelində kişinin qabırğasından qadının yaradılması, başqa sözlə, kişinin qadını doğması ilə müqayisə edilə bilər.** Bu da sözügedən mərasimi fakt psixosemantik kontekstdə kişilərin qadınların doğum qabiliyyətinə qısqanclıqları ilə izah edilə bilər. Burada başqa, bir sual ortaya çıxır: axı mərasimi yerinə yetirən cəmiyyətin özündə belə bir məlumat yoxdur?

Bu məsələyə münasibət bildirmək üçün mövzu ilə birbaşa bağlı olmasa da, Alan Dundesin Stanley Hallın yanaşmasına münasibətini diqqətə çatdırmaq istərdik. Belə ki, Stanley Hall Edipin öz ata və anasını tanımadığına görə bu süjeti Edip kompleksi kontekstində izah olunmasını qəbul etmir. Bildirir ki, Edip öz ata və anasını tanımır ki, anasına məhəbbət kontekstində atanı düşmən kimi müəyyənləşdirərək onun yerinə keçmək istəsin. Alan Dundesin fikrinə görə, S.Hall Freydin qeyri-şüuri anlayışının təbiətini anlamamışdır. O, daha sonra yazır: "Hall Edipin öz ata və anasını tanımamasını əsas gətirərək Edip kompleksinin gerçəkliyini qəbul etmək istəmirdi. Bu, aydın şəkildə göstərir ki, o, Freydin qeyri-şüuri anlayışını əsaslı şəkildə anlamırdı. Folklor tabu ideyaların təcəssümü üçün sosial sanksiyalaşmış çıxış nöqtəsi təqdim edir. Ona görə də Edipin öz atasını öldürməsi və anası ilə evlənməsini şüurlu şəkildə bilməməsi çox mühüm faktdır. Əgər o bunu bilsə, nə süjet, nə də dram ortaya çıxardı " (Dundes 1997b: 7).

Mərasimdə də belədir. Alan Dundesin dediyi kimi, "folklor tabu ideyaların təcəssümü üçün sosial sanksiyalaşmış çıxış nöqtəsi təqdim edir". Bu mənada, sünnətdə mərasimi kontekstdə uşağın yanına qoyulan yumurta və ona geyindirilən yubqa ilə kişi mühiti nə etdiyini, nə demək istədiyini şüurlu şəkildə bilsəydi, heç onda bunu etməzdi. Belə olan təqdirdə nə sünnət mərasimi, nə də sünnət zamanı oğlan uşağının yanına qadın doğurqanlığının simvolu olan yumurtanın qoyulması, əyninə yubqanın geyindirilməsi faktı ortaya çıxardı.

Psixoanalitik baxımdan bu qadınların doğum gücünün kişilər tərəfindən mənimsənilməsi hadisəsidir. Mahiyyəti etibarı ilə bu kişilərin bütün yaradılış mexanizmlərinə sahib olmaq arzularının bir parçasıdır.

## QAYNAQLAR

***Akyol,*** N. S. 2006. Adana (Merkez) Halk Kültüründe Halk Inançları Bayramlar Ve Törenler/Yüksek Lisans Tezi/ Adana, 178 s.

***Altun,*** Işıl 2004. Kandıra türkmenlerinde doğum, evlenme ve ölüm. İzmir: Yayıncı Yayınları, 399 s.

***Başçetinçelik,*** Ayşe. Halk Kültüründe Kırk Basması-Nazar-Kırklama. http://turkoloji.cu.edu.tr/HALKBILIM/ayse_bascetincelik_adana_halk_kulturu_kirk_basmasi.pdf

***Bettelheim,*** Bruno 1962. Symbolic Wounds: Puberty Rites and the Envious Male. New York: Collier Books, 194 p.

***Bronner,*** Simon, J. 2015. Toward the formulation of a folkloristic theory of mind: the role of psychoanalysis and symbolist approaches to tradition. Milli folklor, sayı 108, s. 18-30.

*Cansever, Gocke* 1965. Psychological Effects of *Circumcision*. British Journal of Medical Psychology 38, pp.*321-331*.

***Cəfərli,*** M., Babayev R. 2010. Naxçıvan folkloru antologiyası, I cild. Naxçıvan: Əcəmi, 506 s.

***Dundes,*** Alan 1976. A Psychoanalytic Study of the Bullroarer. *Man*, vol. 11, no. 2, pp. 220–238.

Dundes, Alan 2007. Meaning of Folklore: The Analytical Essays of Alan Dundes. *ed.* Simon J. Bronner, Logan: Utah State University Press, 443 p.

***Dundes,*** Alan 1997. The Psychological study of folklore in the United States. *In From game to war and other psycoanalytic essays on folklore.* Kentucky: The University press of Kentucky, pp. 1- 24.

***Kalafat,*** Y. 2006. Balkanlardan Ulug Türküstana türk halk inancları. V-VI cild. Ankara: Berkan yayınları, 454 səh.

***Kalafat,*** Y. 2007a. Balkanlardan Uluğ Türküstana Türk Halk inancları. I cild. Ankara: Berkan yayınları, 412 s.

***Kalafat,*** Y. 2007b. Balkanlardan Uluğ Türküstana Türk Halq İnançları. VII. Ankara, 414 s.

***Kalafat,*** Y., Yelis D. 2012. Türk Atalar ve Karşılaştırmalı Halk İnanmaları. Avrasya Etüdleri , 42 (2), s. 169-206.

***Tatlılıoğlu,*** D. 2000. Türkmen Irımları (Halk İnançları). Cumhuriyet Üniversitesi İlahiyat Fakültesi Dergisi. s. 151-166.

*Daxilolma tarixi: İlkin variant 25.01.2021*
*Son variant 19.02.2021*